# TARİX

**UOT 94/479.24**

## AZƏRBAYCANDA MƏDƏNİYYƏT ABİDƏLƏRİNİN VƏZİYYƏTİ, QORUNMASI, ÖYRƏNİLMƏSİ VƏ BƏRPASI İŞLƏRİNİN YAXŞILAŞDIRILMASI BARƏDƏ AZƏRBAYCAN KP MK VƏ AZƏRBAYCAN SOVETİNİN 1957-ci İL 23 APREL TARİXLİ QƏRARI

**İ.X.ZEYNALOV, X.R.SƏFƏROVA, B.E.NƏBİYEV**
***Bakı Dövlət Universiteti***
***Zeynalov İbrahim@hotmail.com***

*Elmi məqalədə XX yüzilin 50-ci illərində Azərbaycan SSR-də mədəniyyət abidələrinin vəziyyəti, bu sahədə yol verilmiş nöqsanların üzə çıxarılması, onların aradan qaldırılması və bərpa edilməsi sahəsində həyata keçirilən tədbirlər öyrənilir.*

*Həmçinin bu sahədə Azərbaycan SSR Nazirlər Sovetinin Dövlət Komitəsinin, Elmlər Akademiyasının, Azərbaycan SSR Mədəniyyət Nazirliyinin və digər aidiyyətli yerli orqanların işdə mövcud olan, yol verilən səhvlər və nöqsandar araşdırılır.*

*Məqalədə, Azərbaycanda mədəniyyət abidələrinin bərpası, onların qorunması sahəsində mövcud vəziyyətin Azərbaycan KP MK-nın və Azərbaycan SSR Nazirlər Sovetinin 23 aprel 1957-ci il tarixli birgə iclasında müzakirə olunması və zəruri qərarların qəbul edilməsi ilə bağlı məsələlər də əsas yer tutur.*

*Elmi məqalə ARPİİSSA-nın (Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi) sənədləri əsasında işlənmişdir.*

**Açar sözlər:** Azərbaycan KP MK, Azərbaycan SSR Nazirlər Soveti, qərar, həmkarlar ittifaqı, Azərbaycan SSR EA, Mədəniyyət Nazirliyi, mühafizə, bərpa, qorunma, mədəniyyət abidələri, memarlıq abidələri, elmi-bərpa emalatxanası, Maarif Nazirliyi

1957-ci il 23 apreldə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi və Azərbaycan SSR Nazirlər Sovetinin birgə keçirdiyi iclasda “Azərbaycanda mədəniyyət abidələrinin vəziyyəti, qorunması və bərpası işlərinin yaxşılaşdırılması” ilə bağlı məsələ müzakirə edilmişdir (ARPİİSSA. Fond 1, siyahı 44, iş 67, v. 62-74).

Müzakirənin mətni və qəbul edilən qərarı təqdim edirik.

Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Soveti qeyd edir ki,

Azərbaycanda mədəniyyət abidələrinin qorunması, müəyyən edilməsi, öyrənilməsi, bərpası və təbliğatı bərbad vəziyyətdədir.

Azərbaycan SSR Nazirlər Sovetinin tikinti və memarlıq işləri üzrə Dövlət komitəsinin rəhbərləri, Azərbaycan SSR Elmlər Akademiyası və Mədəniyyət Nazirliyi SSRİ Nazirlər Sovetinin, Azərbaycan KP MK və Nazirlər Sovetinin bu məsələ üzrə verdiyi bir sıra qərarların həyata keçməsini təmin etməmişlər.

Dövlət mühafizəsinə ehtiyacı olan bütün növ tarixi abidələrin siyahısının tərtibi üzrə işlər tamamlanmamışdır. Yalnız Azərbaycan SSR dövlət mühafizəsinə verilmiş memarlıq abidələrinin siyahısı təsdiq olunmuşdur.

Yerli Sovetlərin mədəniyyət abidələrinin mühafizəsinə olan məsuliyyətsizlik münasibəti nəticəsində, hələ də, bu abidələrin dağıdılması hallarına rast gəlinir. Belə ki, Mərəzə rayonunun Xillmilli kəndindəki karvansara, Bakının Binəqədi rayonunun Xocahəsən kəndindəki karvansara, Xaldan kəndindəki məqbərə, Quba rayonunun Aqbil kəndindəki məqbərə və digərləri dağıdılmışdır. Bir sıra unikal abidələr, məsələn, Pirsaat çayındakı Xanegi kompleks qurğusu və Mərəzə kəndində "Diri-baba" türbəsi tədricən dağılmağa məruz qalır. Belə hallarda, adətən, abidələri dağıdanlar cəzasız qalırlar.

Dövlət tərəfindən qorunacaq 435 arxitektura abidələrindən yalnız 10-u bərpa olunur, halbuki 100-dən çox qiymətli abidənin təxirəsalınmadan təmirə və bərpaya ehtiyacı var. Hər il arxitektura abidələrinin bərpa və abadlaşdırılmasına ayrılan vəsait kifayət etmir.

Azərbaycan SSR Nazirlər Sovetinin Tikinti və Memarlıq İşləri üzrə Dövlət Komitəsinin elmi-bərpa emalatxanası öz işini hələ də zəif aparır, bir çox hallarda gördüyü işlərin keyfiyyəti bərpaya qoyulan yüksək tələbatı ödəmir (məs. Naxçıvandakı Möminəxatun məqbərəsi və s.)

Azərbaycan SSR Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutu məhdud sayda abidələr qrupunu tədqiq edir ki, bu da yaxın illərdə bərpa işlərində aparılacaq elmi-tədqiqat işləri üçün lazımi bazanı təmin etmir, əksinə, Azərbaycanın maddi mədəniyyət tarixinə aid bir çox mühüm məsələlərin həllini çətinləşdirir.

Respublika Elmlər Akademiyası "Bayıl daşları"nın kompleks öyrənilməsini yekunlaşdırılmamış, çoxillik Mingəçevir arxeoloji ekspedisiyası və Qobustanın qayaüstü təsvirləri üzrə ümumiləşdirilmiş işləri dərc etməmiş, arxitektura abidələrinin bərpası təcrübəsinin ümumiləşdirilməsi üzrə işləri təşkil etməmişlər.

Son illərdə Elmlər Akademiyası müəsissələrində tarixi abidələrin müəyyən edilməsi və öyrənilməsi ücün aparılan ekspediya işləri zəifləmişdir.

Mədəniyyət abidələrinin mühazirələr kiçik kitabxanalar nəşri ilə dövrü mətbuatda plakatlar nəşri ilə, təbliğatı bərbad vəziyyətdədir. Həmkarlar ittifaqı, Maarif Nazirliyi, Azərbaycan SSR Mədəniyyət Nazirliyi, Elmlər Akademiyası və respublikanın siyasi və elmi biliklərin yayılması Cəmiyyəti bu mühüm məsələyə lazımi diqqət yetirmir.

Respublikanın ali məktəblərinin xüsusi fakültələrinin tələbələri Azərbaycan xalqının mədəniyyət abidələri ilə tanış olmurlar.

Mədəniyyət abidələrinin mühafizəsi, bərpası və təbliğatı işlərindəki ciddi nöqsanların olması həmçinin, bu işə rəhbərlik edən vahid orqanın olmaması ilə izah olunur.

**Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Soveti qərara alır:**

1. Azərbaycan SSR Nazirlər Sovetinin tikinti Memarlıq İşləri üzrə Dövlət Komitəsinə, Azərbaycan SSR Mədəniyyət Nazirliyi və Elmlər Akademiyasına tapşırılsın ki, bir ay müddətində dövlət tərəfindən qorunacaq arxitektura, xalq məskənləri, incəsənət, arxeologiya abidələrinin, mədəniyyət xadimlərinin qəbirlərinin siyahısının tərtibi başa çatdırılsın və Azərbaycan SSR Nazirlər Sovetinin təsdiqi üçün təqdim olunsun.

2. Azərbaycan SSR Nazirlər Sovetinin Tikinti və Memarlıq İşləri üzrə Dövlət komitəsinə, Azərbaycan SSR Mədəniyyət Nazirliyi və Elmlər Akademiyasına tapşırılsın ki, Azərbaycan SSR Nazirlər Sovetinin Dövlət Plan Komitəsi və Azərbaycan SSR Maliyyə Nazirliyi ilə razılaşdırılaraq, bir ay ərzində Azərbaycanın mədəniyyət abidələrinin bərpası, yenidən qurulması və abadlaşdırılmasına aid 1958-1960-cı illərdə tədbirlər planı Azərbaycan SSR Nazirlər Sovetinin təsdiqinə təqdim edilsin.

3. Bakı şəhərindəki Şirvanşahlar sarayı kompleksi, Nuxa şəhərindəki Şəki xan sarayı, Qəbələ rayonunun Xəzrə kəndi yaxınlığındakı məqbərələri olan “Nekropolu” qoruq elan edilsin.

4. Azərbaycan SSR Mədəniyyət Nazirliyinə Azərbaycan SSR Elmlər Akademiyası, Respublika Yazıçılar İttifaqı, arxitektorlar, bəstəkarlar və rəssamlar ittifaqları ilə birlikdə bir ay ərzində, görkəmli mədəniyyət xadimlərinin dəfn olunduğu yerlərdə abidələrin ucaldılması və xatirə löhvələrinin qoyulmasına aid tədbirlər planı hazırlayıb Azərbaycan SSR Nazirlər Sovetinə baxılması üçün təqdim edilsin.

5. Azərbaycan SSR Nazirlər Sovetinin Dövlət plan komitəsinə və Maliyyə Nazirliyinə tapşırılsın ki, illik planları tərtib edərkən aşağıdakılar nəzərdə tutulsun:

a) layihə təşkilatları vasitəsilə abidələrin layihələşdirlməsinə, həmçinin, mədəniyyət abidələrinin, qəbirüstü abidələrin və xatirə lövhələrinin qurulması və bərpasına vəsait.

b) podratçı nazirliklərin podrat işləri planına yeni mədəniyyət abidələrinin tikilməsini daxil etmək.

c) 1957-ci ildə xüsusi elmi-bərpa emalatxanasına lazımi avadanlıqları ayırmaq.

6. Azərbaycan SSR Maliyyə naziri R.N.Sadıxov yoldaşın, Azərbaycan SSR Nazirlər Sovetinin Tikinti və Arxitektura İşləri üzrə Dövlət Komitəsinə, 1957-ci ildə elmi-tədqiqat ölçmə-layihə və bərpa işlərinə 1,2 mln rubl ayrılması haqqında bəyanatı nəzərə almaq.

7. Azərbaycan SSR Maliyyə Nazirliyinə tapşırılsın: 1957-ci ildə

a) Azərbaycan SSR Nazirlər Sovetinin tikinti və arxitektura üzrə Dövlət Komitəsinə elmi-bərpa emalatxanası üçün avadanlıq alınmasına 100.0 min rubl ayrılsın;

b) Azərbaycan SSR Elmlər Akademiyasına Bakı şəhərindəki memarlıq abidəsi –Şirvanşahlar sarayının ölçmə-layihə və bərpa işlərinə 250.0 min rubl ayrılsın.

8. Azərbaycan SSR Nazirlər Sovetinin Dövlət plan komitəsinə və tikinti və memarlıq işləri üzrə Dövlət Komitəsinə tapşırılsın: tarixi abidələrin təhlükəsizliyini qoruyan işçilərə olan tələbat müəyyənləşdirilsin, bu zaman respublika üzrə qorunan obyektlərin varlığı və paylanması sərhədləri nəzərə alınsın.

9. Bakı Şəhər İcraiyyə Komitəsinə tapşırılsın ki, 1957-ci il ərzində fəxri xiyaban ərazisi abadlaşdırılsın və yaşıllaşdırılsın.

10.Azərbaycan SSR Mədəniyyət Nazirliyi nəşriyyat və kinostudiyanın planlarında aşağıdakıları nəzərə alsın:

a) Azərbaycan SSR Nazirlər Sovetinin tikinti və arxitektura işləri üzrə Dövlət Komitəsinin təqdim etdiyi abidələrin qorunmasına dair reklam-plakatla elmi-metodiki ədəbiyyat, həmçinin, memarlıq, incəsənət və arxeoloji abidələrə aid elmi-kütləvi kitablar nəşr olunsun;

b) Azərbaycanın mədəniyyət abidələrinə həsr olunmuş mənzərə filmi yaradılsın.

11. Azərbaycan SSR Elmlər Akademiyasının Rəyasət heyətinə tapşırılsın:

a) mədəniyyət abidələrinin öyrənilməsi və təsnifatı mövzusu genişləndirilsin, bu sahədə ekspedisiya işləri gücləndirilsin;

b) 1957-1959-cu illər ərzində Azərbaycanın arxitektura tarixinin birinci cildinin, xalça sənətinə aid monoqrafiyanın Abşeiron qəbirüstü abidələrinin ornamentləri albomunun Mingəçevir ekspedisiyasının nəticələrinə aid ümumiləşmiş əsərin və Qobustan qayaüstü təsvirlər haqqında monoqrafiyanın birinci hissəsinin nəşri təmin edilsin;

c) elmi-tədqiqat işləri planına "Azərbaycan memarlıq abidələri" silsiləsinin, Azərbaycanın xalq məskənləri haqqında monoqrafiyanın, arxitektura və mühüm memarlıq abidələrinin bərpası haqqında toplunun dərc olunması daxil edilsin.

12. SSRİ Ali Təhsil Nazirliyinin 1956-ci il 15 sentyabr İ-100 qərarına əsasən, S.M.Kirov adına Bakı Dövlət Universitetinə, V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji inistitutuna, Azərbaycan Politexnik İnstituna tapşırılsın ki, uyğun şöbələrin tədris planına Azərbaycanın mədəniyyət abidələrinə aid fakültativ kurslar daxil edilsin.

13. Azərbaycan KP vilayət, şəhər və rayon Komitəsinə, Azərbaycan Lenin Komsomol Gənclər ittifaqı, AHİŞ (Azərbaycan Həmkarlar İttifaqı Şurası) siyasi və elmi biliklərin nəşri cəmiyyətinə, Maarif Nazirliyinə, Mədəniyyət Nazirliyinə və Azərbaycan SSR Elmlər Akademiyasına tapşırılsın ki,

respublikanın zəhmətkeşləri və təhsil alan gəncləri arasında mədəniyyət abidələrinin əhəmiyyəti haqqında izahat işləri gücləndirilsin.

Azərbaycan SSR Maarif Nazirliyinə və Azərbaycanın LKGİ MK-na tapşırılsın ki, gənclərin tarixi abidələrə hörmət və ehtiyatlı münasibət ruhunda tərbiyə olunması üçün, onları mədəniyyət abidələrinin abadlaşdırılması və mühafizəsi işinə cəlb etmək üçün tədbirlər planı hazırlayıb həyata keçirsinlər.

14. Respublika, şəhər və rayon qəzet və jurnal redaksiyalarına, radio yayım idarəsinə tapşırılsın: öz səhifələrində və radio verilişlərində mədəniyyət abidələrini kütləviləşdirən materiallar yerləşdirsinlər onların qorunmasını təmin edən məsələləri işıqlandırsınlar.

15. Yerli partiya və sovet orqanlarından, mədəniyyət abidələrinin lazımı qaydada mühafizəsini təmin etmək üçün müvafiq tədbirlər görülməsi tələb olunsun.

Zəhmətkeşlərin yerli deputatlar Sovetinin İcraiyyə Komitəsinə təklif olunsun ki, seçicilər qarşısında verəcəkləri hesabatlarda, onların ərazisində yerləşən mədəniyyət abidələrinin vəziyyəti və onların qorunmasının təmin olunmasına dair tədbirləri əks etdirsinlər.

16. Tikinti və torpaq işləri aparan bütün idarə və təşkilatların rəhbərləri mövcud olan tikintinin vəsaiti hesabına lazimi arxeoloji nəzarətə, işlər aparılan zaman tapılan tarixi-mədəni əhəmiyyətli əşyaların muzey fonduna verilməsi haqqında qaydalara ciddi əməl olunması barəsində xəbərdarlıq edilsin.

Azərbaycanın KP MK-nın birinci katibi İ.D.Mustafayeva göndərilən hesabatda qeyd edilir ki, Azərbaycanın memarlıq abidələrinin müəyyən edilməsi, öyrənilməsi və nəşr olunması sahəsində əsaslı işlər görülmüşdür. Görülmüş işlər nəticəsində Azərbaycan memarlıq abidələrinin əsas hissəsi müəyyən edilmiş və dövlət mühafizəsinə götürülmüşdür. Azərbaycan SSR Elmlər Akademiyasında aparılan elmi-tədqiqat işləri üzrə Azərbaycan memarlığının inkişafının ümumi mənzərəsini və Azərbaycan zəminində ki arxitektura binalarının əsas növlərinin xüsusiyyətlərini aydınlaşdırmaq mümkün olmuşdur. Bu məsələlərə həsr olunmuş bir çox məcmuə və tədqiqatlar dərc olunmuşdur. Azərbaycanın qədim dövrdən Böyük Oktyabr Sosialist İnqilabına qədərki vaxtı əhatə edən memarlıq tarixinin birinci cildi üzərində iş tamamlanmaq üzrədir.

Bu işlərə 1952-ci ildən, yəni digər respublikalarda mövcud olan, eyni tipli idarə Azərbaycan SSR Nazirlər Sovetinin tikinti və memarlıq işləri üzrə Dövlət Komitəsinin nəzdindəki xüsusi elmi-bərpa emalatxanasının yaradıldığı dövrdən başlanmışdır. Hal-hazırda emalatxanada aşağıdakı üzrə işlər aparılır:

1. Naxçıvanda Möminə Xatun məqbərəsi.
2. Naxçıvanda Yusif ibn Küseyr türbəsi.
3. Bakıda Şirvanşahlar sarayı.
4. Bərdə məqbərəsi.
5. Mərdəkandakı dördbucaqlı qülləli qala.
6. Bakidakı qala divarlar.
7. Mərdəkandakı dairəvi qülləli qala .
8. Nuxadakı Şəki xan sarayı.

Göstərilən abidələrdən 1956-cı ildə Naxçıvandakı Yusif ibn Küseyr türbəsi və Mərdəkan kəndindəki iki feodal qalası üzrə bərpa işləri qurtarmaq üzrədir.

Nuxadakı Şəki xanlarının sarayı üzrə geniş ölçmə və yoxlama işləri aparılmışdır. Belə ki, divardakı çoxsaylı nəqqaşlıq işləri və sarayın tavan interyeri rəngli şəkildə köçürülmüşdür. Bu abidənin bərpa layihəsinin tərtibi qurtarmışdır. 1957-ci ildə bərpa işlərinə başlanması nəzərdə tutulmuşdur. Bir çox mütəxəssislərlə məsləhətləşmələr nəticəsində binanın zədələnmiş hissələrinin dəyişdirilməsi daha məqsədəuyğun hesab edilmişdir.Binanın bərpa işləri üzrə son nəticədə lazımi tədbirlərin qəbulu ücün, SSRİ Elmlər Akademiyası Rəyasət Heyətinin abidələri mühafizəsi üzrə Elmi-metodiki Şuranın tövsiyəsi ilə Moskvadan texnoloq-mütəxəssis dəvət olunmuşdur.

Sizin, haqlı olaraq, dediyiniz kimi, bir çox hallarda bərpa işlərinin nə sürəti, nə də ki, keyfiyyəti qənaətbəxş deyildir. Bərpa işlərinin keyfiyyəti Bakı və Abşeironun daş binalarında nisbətən yaxşı, kərpic binalarda isə daha pis vəziyyətdədir.

Belə vəziyyətin yaranmasının əsas səbəbləri elmi-bərpa emalatxanasının ixtisaslı kadrlarla lazımı qədər komplektləşdirilməsi, emalatxananın özünün istehsalat bazasının olmaması, nəqliyyatın çatışmamasıdır. Yaranmış vəziyyət nəticəsində bir çox hallarda, emalatxana bərpa işlərini rayonlarda yerli tikinti kadrları və təşkilatların öz qüvvələri ilə aparmağa məcbur olur, bu da bərpa işlərinin müddətinə və keyfiyyətinə mənfi təsir edir.

Abidələrin bərpa işlərinin yaxşılaşdırılması və sürətləndirilməsi üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur:

1. Bərpa emalatxanasını daimi yerlə təmin etmək lazımdır (hazırda emalatxana müvəqqəti olaraq Şirvanşahlar sarayında yerləşir). Emalatxana üçün uyğun yer indi hərbi-ticarət təşkilatının tutduğu, Qaladakı keçmiş cümə məscidinin binasıdır.

2. Emalatxana üçün keramika istehsal edən daşyonan və kəsən, müxtəlif qəliblər hazırlayan sexləri olan uyğun istehsalat bazası yaradılmalıdır. Bu əsas bazanı Bakıda yaratmaq məqsədəuyğundur.

Gəncə və Naxçıvanda kvadrat formalı bişmiş kərpic istehsal edən sex yaradılmalıdır, bu kərpicdən tikilmiş abidələrinin uçan yerlərini bərpa etmək üçün gərəklidir.

3. Emalatxanada müasir avadanlıqlarla təchiz olunmuş fotolaboratoriyanın yaradılması labüddür.

4. Emalatxana bütün Respublika ərazisində bərpa işləri və memarlıq ölçmələri apardığı üçün iki maşın ona kifayət etmir. Emalatxananın nəqliyyatla təmin olunması vacibdir.

5. Emalatxananın ixtisaslı kadrlarla gücləndirilməsi çox vacibdir. Buraya belə kadrları cəlb etmək üçün onlar, yüksək maaşla təmin olunmalıdırlar.

Emalatxanaya ixtisaslı tikinti ustalarını cəlb etmək ücün bərpaçı ustaların taarif dərəcələrini iki kateqoriyalı tikililərin tarif dərəcələrinə bərabər

tutmaq lazımdır.

Lazımı təşkilatçılıq və emalatxananın avadanlıqlarla təminatı yaxın onillikdə 50-60 çox qiymətli memarlıq abidəsini bərpa etməyə və onlarla digərlərini möhkəmlətməyə imkan verər ki, bu da həmin abidələri məhv olmaqdan qoruyar.

Göstərilən qaydada mühüm abidələrin bərpası və möhkəmləndirilməsini aparmaqla paralel olaraq, yerli sovetlərə tapşırılmalıdır ki, göstərilən dövrdə digər abidələrin üzərində ətrafı abadlaşdırmaqla binalardan qopan hissələrin qorunmasını təmin etməklə və s. ilə uyğun işlər aparılsın. Bu məqsədlə bərpa emalatxanasına memarlıq abidələrinin qorunması işlərinin aparılmasına və istehsalat işlərində nöqsanların qarşısının alınmasına nəzarət etmək üçün müəyyən vəsait ayrılması məqsədəuyğundur.

1956-cı ildə abidələrin bərpasına 1 mln rubldan çox vəsait ayrılıb. Hətta indiki vaxtda yuxarıda göstərilən tədbirləri həyata keçirmək üçün emalatxanaya daha çox vəsait tələb olunur.

Nəzərdə tutulan işlərin, həyata keçirilməsi üçün, emalatxanaya 1957-ci ildə 3 mln rubla yaxın pul tələb olunur (bu vəsaitin 3.5-4 mln rubla çatdırılması şərti ilə).

Memarlıq abidələrinin bərpası üzrə işlərin belə geniş vüsət alması, memarlıq abidələrinin öyrənilməsi və kütləviləşdirilməsini tələb edir.

7. İlk növbədə, bərpası yaxın illərdə başlanılmalı olan abidələr qrupu öyrənilməlidir. Ekspedisiya və yoxlama səfərlərini müvəfəqiyyətlə aparmaq üçün, Memarlıq və İncənət İnstitunu elmi-bərpa emalatxanasını və Azərbaycan SSR NS tikinti və memarlıq işləri üzrə Dövlət Komitəsinin abidələrin mühafizəsi şöbəsini səhra tipli avtomaşınlarla təmin etmək lazımdır.

8. Respublikanın kənd rayonlarının yaşayış memarlığının öyrənilməsi davam etdirilməli və genişləndirilməlidir. İnstitutun 1957-ci il ücün elmi-tədqiqat planına Azərbaycanın yaşayış evləri haqqında monoqrafiyanın yaradılmasını da daxil etmək lazımdır.

9. Hələ ki, dövlət mühafizəsinə ehtiyacı olan yaşayış-memarlıq abidələrinin siyahısı dəqiqləşdirilməyib. Azərbaycan SSR Nazirlər Sovetinin tikinti və memarlıq üzrə Dövlət Komitəsi və Azərbaycan SSR Elmlər Akademiyası cari ilin axırına qədər müvafiq siyahını hazırlayıb hökumətin təsdiqinə verməlidir.

Ümumilikdə, memarlıq abidələrinin, xüsusilə bərpa olunanların mühafizəsi, onların lazımi qədər kütləviləşməmələri səbəbindən, sözsüz ki, çətinləşir. Memarlıq və İncəsənət İnistitutunun nəşr etməyə başladıgı kütləvi ədəbiyyatla yanaşı, abidələr yerləşən rayonların əhalisinin geniş kütləsi arasında həmin abidələrə həsr olunmuş kiçik reklam-plakatların nəşri də vacibdir. Bu layihələr mədəniyyət abidələrinin mühafizəsi üzrə elmi-metodiki şurasının qüvvələri ilə hazırlanıb həyata keçirilməlidir.

10. Respublikanın ziyalıları da memarlıq abidələri ilə kifayət qədər tanış deyillər. Bunun əsas səbəbi ondadır ki, nə Dövlət Universitetinin (tarix,

filologiya, şərqşünaslıq), nə də ki, Pedaqoji İnstitutun müvafiq fakültələrində, Azərbaycanın memarlıq abidələrinə həsr olunmuş Azərbaycanın mədəniyyət kursu nəinki yoxdur, hətta fakültativ kurs belə keçilmir. 1957-1958-ci illər ərzində Memarlıq və İncəsənət İnstitutu Azərbaycan dilində, Azərbaycanın memarlıq tarixinə dair qısa kurs hazırlaya bilər ki, bu da ali məktəblər üçün dərs vəsaiti kimi istifadə edirlər.

11. Kütlə arasında memarlıq abidələrini populyarlaşdırmaq, həmçinin, onların daha yaxşı qorunmasını təmin etmək üçün nisbətən görkəmli binaları kiçik 3-4 nəfərlik ştatı olan memarlıq qoruğu-muzeyinə çevirmək lazımdır. İlk növbədə, Bakıdakı Şirvanşahlar saray kompleksi və Nuxadakı Şəki xanlarının sarayı belə muzey qoruğuna çevrilməlidir.

Memarlıq abidələrinin kütləviləşdirilməsinin qarşısını alan səbəbləri respublikada yaxşı poliqrafiya bazasının, yaxşı kağızın, müasir fotoavadanlığın olmamasıdır.

12. Uyğun fotoləvazimatları və fotomaterialları və iki əlavə ştat vahidi alındıqda, Azərbaycan SSR Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutu yaxın illərdə "Azərbaycanın memarlıq abidələri" nəşrini çapa hazırlayar, bir neçə nəşrlə Azərbaycanın müəyyən edilmiş memarlıq abidələrini əhatə edər, mühüm abidələrə həsr olunmuş rəngli fotoalbomlar hazırlaya bilər.

13. Abidələrin mühafizəsi üzrə tədbirlərin daha səmərəli olması üçün hökumət, yerli sovetlərin memarlıq abidələrinin qorunmasına dair məsuliyyətini, onları dağıdan və korlayanlara müəyyən cəza tədbirlərini nəzərdə tutan uyğun qərarlar qəbul etməlidir.

Elmi məqalə Azərbaycan Respublikası Prezidentinin işlər idarəsi siyası sənədlər Arxivinin aşağıdakı materialı əsasında tərtib edilmişdir.

### ƏDƏBİYYAT


1. ARPİİSSA, Fond 1, siyahı 44, iş 67. V.62-74
2. Zeynalov İ.X. Azərbaycan sosial-iqtisadi inkişafı XX əsrin II yarısında Bakı: Azərnəşr, 2004, 326 s
3. ARPİİSSA, Fond 1, siyahı 46, is 78,79,160


## ПОСТАНОВЛЕНИЕ ЦК КР АЗЕРБАЙДЖАНА И СОВЕТА МИНИСТРОВ АЗЕРБАЙДЖАНА ОТ 23 АПРЕЛЯ 1957 ГОДА "ОБ УЛУЧШЕНИИ РАБОТ ПО СОСТОЯНИЮ, СОХРАНЕНИЮ, ИЗУЧЕНИЮ И РЕСТАВРАЦИИ ПАМЯТНИКОВ КУЛЬТУРЫ АЗЕРБАЙДЖАНА"


**И.Х.ЗЕЙНАЛОВ, Х.Р.САФАРОВА, Б.Э.НАБИЕВ**


### РЕЗЮМЕ


В научной статье рассматривается общее состояние и реставрация культурных памятников Азербайджанской ССР в 50-х годах XX века, меры, предпринятые республиканскими властями по предотвращению недостатков и проблем в этой области. В статье также изучаются ошибки и недостатки в этой области в работе таких государственных и партийных структур как, Государственный Комитет Совета Министров

Азербайджанской ССР, Академия Наук Азербайджанской ССР, Министерство Культуры Азербайджанской ССР и др.

В статье важное место занимает изучение решении совместного совещания ЦК АКП и Совета Министров Азербайджанской ССР, проведенного 26 апреля 1957 года, посвященного обсуждению проблем в области хранения и реставрации культурных памятников Азербайджана. Научная статья была написана на основе материалов фонда №1 ГАПДУДПАР (Государственный Архив Политических Документов Управления Делами при Президенте Азербайджанской Республики, фонд 1, опись 44, дело 67).

**Ключевые слова:** ЦК КП Азерб. Совета Мнистров Аз. ССР, постановление, Профсоюз, АН Аз. ССР, Министерство Культуры, охрана, реставрация, памятники культуры, памятники архитектуры, Институт Архитектуры, Министерство Просвещения.

## THE DECISION OF AZERBAIJAN CP CC AND THE AZERBAIJAN SSR DATED APRIL 23 , 1957 ABOUT THE IMPROVEMENT OF THE PRESERVATION, INVESTIGATION AND RESTORATION OF CULTURAL MONUMENTS IN AZERBAIJAN

**I.Kh.ZEYNALOV, X.R.SAFAROVA, B.E.NABIYEV**

### SUMMARY

The article studies the position of cultural monuments of Azerbaijan SSR in the fifties of the XX century, disclosing the shortages in this field and elimination of them and the measures realized in the field of restoration are studied.

Besides, the mistakes made by Azerbaijan SSR State Committee of Ministers Council, Academy of Sciences, Ministry of Azerbaijan SSR culture and other related organs are investigated.

In the article, the discussion of the affairs related with the restoration of Azerbaijan Cultural monuments in the common meeting of Azerbaijan CP CC and Azerbaijan SSR Council of Ministers held on 23 April 1957 , and adoption of necessary decisions of ongoing situation in their protection take major place.

Scientific article was researched on the basis of the documents of APİİ SSR and the Archieve of political documents of Azerbaijan Republic Presidential Affairs Office ( the APDARPAO Fund 1. page 44, research 67)

**Key words:** CC CP of the Council of Ministers of Azerbayjan SSR, resolution, trade union, protection